# Azərbaycanda demokratik seçki mühiti mövcuddur

## Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov rusiyalı jurnalistlərlə görüşündə bir daha bu fikri qeyd etdi ki, 1 noyabr parlament seçkiləri ölkəmizin demokratik inkişaf tarixinə yeni səhifə yazacaq








**Dünən Yeni Azərbaycan Partiyasının qərargahında Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov parlament seçkiləri ərəfəsində ölkəmizə gəlmiş Rusiyanın aparıcı KİV nümayəndələri ilə görüşdü.**

Qonaqları Yeni Azərbaycan Partiyasının qərargahında salamlamaqdan məmnunluq duyduğunu bildirən Ə.Əhmədov ölkəmizin parlament seçkiləri ərəfəsində olduğunu qeyd etdi. Bildirdi ki, ölkəmizdə demokratik seçki mühiti mövcuddur. Seçkilərə hazırlıq işləri yüksək səviyyədə təşkil olunub. Prosesin demokratik, şəffaf, azad və ədalətli, beynəlxalq standartlara uyğun keçirilməsi üçün zəruri olan bütün addımlar atılıb. Seçkiləri beynəlxalq təşkilatlardan, dövlətlərdən xeyli sayda müşahidəçilərin izləməsinə yaradılan şərait də dövlətimizin prosesin demokratik, şəffaf keçirilməsinə verdiyi önəmi təsdiqləyir. Xeyli sayda siyasi partiyalar prosesə qatılıb ki, bunlardan biri ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasıdır.

Ə.Əhmədov qonaqlara Yeni Azərbaycan Partiyasının yaranma tarixi, keçdiyi inkişaf yolu barədə geniş məlumat verdi. Bildirdi ki, 1992-ci il noyabrın 21-də xalqın istəyi, zamanın tələbi ilə yaranan Yeni Azərbaycan Partiyası ötən 23 ilə yaxın dövr ərzində biri-birindən əhəmiyyətli uğurlara imza atıb. Ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası ilk gündən dövlətə, xalqa xidməti fəaliyyətinin əsas istiqaməti kimi qəbul edib. Azərbaycanın uğurlarına bələdçilik edən Yeni Azərbaycan Partiyasına milyonların sevgisi, sıralarını kəmiyyət və keyfiyyət baxımından günbəgün möhkəmləndirməsi partiyanın öz siyasi xəttinə sadiqliyi ilə bağlıdır.

Bildirildi ki, 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra partiyanın inkişafında yeni bir mərhələnin əsası qoyuldu. İqtidar partiyasına çevrilən YAP inkişaf yolunda inamla irəliləyərək, Azərbaycanın bu və ya digər sahələrdə qazandığı uğurlara atdığı imzası ilə cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi nüfuz qazandı. Bu gün dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası nəinki ölkənin, bütövlükdə bölgənin aparıcı siyasi təşkilatıdır. Partiyanın tutduğu yol beynəlxalq səviyyədə təqdir olunur.

Ə.Əhmədov bildirdi ki, bu gün Yeni Azərbaycan Partiyası sıralarında 670 minə yaxın üzvü birləşdirir. Partiyanın ötən dövrdə sıralarının durmadan artması Heydər Əliyev ideyalarına sədaqətin, ölkədə həyata keçirilən siyasətin gələcəyinə inamın təsdiqidir. Partiyanın üzvlərinin 40 faizini gənclər təşkil etməsi də müsbət haldır. Azərbaycan gəncliyinə diqqət və qayğı partiyanın fəaliyyətində əsas yer tutur. Bu diqqət və qayğının nəticəsidir ki, gənclər partiyanın sıralarında təmsil olunmaqla öz potensiallarını ortaya qoymaq imkanı əldə edir, bütün səylərini Azərbaycanın uğurlu gələcəyinə yönəldirlər.






Ə.Əhmədov Yeni Azərbaycan Partiyasının seçkilərə böyük qələbə əzmi ilə qatıldığını, özünə rəqib partiya görmədiyini diqqətə çatdırdı. Qeyd etdi ki, demokratiyanın vacib amillərindən biri seçkilərin şəffaf, azad və ədalətli keçirilməsi, eyni zamanda, prosesə müxtəlif siyasi partiyaların qatılmasıdır. Azərbaycan demokratik ölkə kimi daim bütün siyasi partiyalara normal fəaliyyətləri üçün şərait yaradır, onların seçkilərdə iştirakı yüksək səviyyədə təmin edilir. Hər bir siyasi partiya yaradılan demokratik şəraitdən, öz imkanlarından istifadə edərək seçkilərdə qələbəsini təmin etmək imkanındadır. Bu baxımdan seçkilərə hansı sayda siyasi partiyanın qatılmasına baxmayaraq, Yeni Azərbaycan Partiyası öz potensial imkanlarına, nüfuzuna, siyasi çəkisinə, xalq tərəfindən dəstəyinə güvənən partiya kimi heç bir siyasi qüvvəni özünə rəqib görmür. Yeni Azərbaycan Partiyası hər zaman seçkilərdən böyük qələbə ilə çıxıb. Buna əsas yaradan partiyanın biri-birindən əhəmiyyətli uğurlarıdır. Yeni Azərbaycan Partiyasına xalqın sevgisi inkaredilməzdir. Bir əsas məqamı da qeyd edək ki, Yeni Azərbaycan Partiyasının Sədri ölkə Prezidenti İlham Əliyevdir. Cənab İlham Əliyevin rəhbərliyi altında görülən işlər, Azərbaycanın hər bir sahədə qazandığı uğurlar partiyanın qələbəsini şərtləndirən əsas amildir. Daim yeniliyə, müasirliyə üstünlük verən dövlət başçısı İlham Əliyev siyasi xəttinə sadiqliyini nümayiş etdirməklə Azərbaycanın dünya birliyində yeri və rolunun möhkəmlənməsinə çalışır.

O da qeyd edildi ki, ölkənin hərtərəfli inkişafında iqtisadi amilin rolu son 12 ildə həyata keçirilən siyasətin ana xəttini təşkil edib. Enerji sahəsində qazanılan davamlı uğurlar bir daha bu reallığın təsdiqidir ki, uğurlu başlanğıc növbəti uğurlar üçün möhkəm bazadır. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə əsası qoyulan enerji strategiyasının uğurları davamlıdır. Enerji bazarında önəmli rolu, təşəbbüskarlığı ilə fərqlənən Azərbaycanda neft strategiyasının icrası sahəsində görülən işlər, yaranan bu imkanlardan səmərəli istifadə nəticəsində respublikamızın adı dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında çəkilir.

Ə.Əhmədov Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolu və mövqeyindən də geniş bəhs etdi. Bu məqamı xüsusi vurğuladı ki, Azərbaycan-Rusiya münasibətləri bütün istiqamətlərdə inkişaf edir, yeni-yeni prioritet istiqamətlər müəyyənləşdirilir. Dövlətimizin xarici siyasətində ikitərəfli əlaqələrin inkişafı əsas yer tutur.

Ə.Əhmədov rusiyalı jurnalistlərin suallarını cavablandırarkən bu gün Azərbaycanın qazandığı uğurlara bəzi xarici antiazərbaycan dairələrin kölgə salmaq cəhdlərinə də münasibətini bildirdi. Qeyd etdi ki, Azərbaycan inkişaf yolunda inamla irəliləyən, öz siyasətində müstəqil olan bir dövlətdir. Ölkəmizdə atılan hər bir addımın əsasında vətəndaş amili dayanır. İnsanların yüksək rifah şəraitində yaşaması üçün davamlı addımlar atılır. İqtisadiyyatın aynası olan dövlət büdcəsinin son 12 ildə 20 dəfədən çox artması uğurlu sosial-iqtisadi islahatların nəticəsidir. Azərbaycanın demokratiya təcrübəsi digər ölkələrə nümunə göstərilir. Bir sözlə, ölkəmizin hərtərəfli inkişafı dünyanın diqqətində olmaqla yanaşı, beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ideal məkan kimi qəbul olunmasını şərtləndirir. Təbii ki, bu uğurlarımızı həzm etməyən qüvvələr var. Onların hər bir cəhdinin qarşısı Azərbaycan dövlətinin uğurlu siyasəti nəticəsində qətiyyətlə alınır. Bu gün dünya inkişafın Azərbaycan modelinin mövcudluğundan bəhs edir. Bütün bu amillər Azərbaycanın davamlı inkişafının qaçılmaz olduğunu təsdiqləyir.

Sonda Ə.Əhmədov jurnalistləri bir daha salamlayaraq, onları obyektiv olmağa, seçkilərlə bağlı həqiqətləri inkara yol vermədən işıqlandırmağa çağırdı.

**Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***